Bəhmən VƏTƏNOĞLU

## Darıxdım

*Axşam da qəribdi, mən də qəribəm,*
*Nələr ürəyimdən keçdi, darıxdım.*
*Zalım ayrılığın kamil ovçusu,*
*Ox atdı, sinəmi deşdi, darıxdım.*
*Nə kövrək saatdı, nə kövrək andı,*
*Nəfəsim təngidi, ürəyim yandı.*
*Kəpəzdən bir ələçim bulud boylandı,*
*Xəyal uzaqlara uçdu, darıxdım.*
*Qoy yazım varağı, qalmasın ağı,*
*Kim çəkər həsrəti Bəhmən sayağı.*
*Çox da müqəddəsdi Gəncə torpağı,*
*Kəlbəcər yadıma düşdü, darıxdım.*

## A dünya

**Əzəldən nizamın, qurğun varıydı,**
**Biz də dolanırdıq mağıl, a dünya.**
**İndi milçəklərin fildən böyükdür,**
**Səni tarımar ol, dağıl, a dünya.**

**Yolların dumanlı, çiskinli, çənli,**
**Yüz yaşlı qocaya qurursan nənni.**
**Bülbül dinləyici, qarğa müğənni**
**İtibdir başından ağıl, a dünya.**

**Dırnağı ilişən zəli olubdu,**
**Ağıllı çevrilib dəli olubdu,**
**Hər gadaya baş əyməli olubdu,**
**Vətənoğlu kimi oğul, a dünya.**

## Əyə bilməz

**Aqil insan hədər çəkmə cəfanı,**
**Tanrı ucaldanı el əyə bilməz.**
**Yığılsa bir yerə yüz min pəhlivan,**
**Çırmasa meydanda qol, əyə bilməz.**

**Dönmə pak vicdandan, təmiz əməldən,**
**Söz sənindir, söhbət olsa əzəldən,**
**Doğru yol-ərkanı buraxma əldən,**
**Zərrə boyda haqqı, kəl əyə bilməz.**

**İnanma sevdiyi təkcə canandı,**
**Nə tək yerdi, göydü, nə asimandı.**
**Bəhmən özgə gözəlliyə heyrandı,**
**Onu al yanaqda xal əyə bilməz.**

## Belə sinə - belə sinə

Dağda qarı utandırır
Belə sinə, belə sinə.
O sinənin üstdə üzüm
Belə sinə, belə sinə

Məcnuntək üryan olmağa,
Yolunda giryan olmağa.
Nə var ki, qurban olmağa,
Beləsinə, beləsinə.

Təbib naşı, Bəhmən xəstə,
Dərd artırır dəstə-dəstə.
Dağlar çəkdi sinəm üstə
Beləsinə, beləsinə.